*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 411-427*

https://doi.org/10.62837/2025.1.411

**KAMRAN ŞAHVERƏN OĞLU KAZIMOV**
**Filologiya üzrə elmlər doktoru,**
**Lənkəran DFövlət Universitetinin professoru**
**kkamran@mail.ru**

# ELŞAD SƏFƏRLI POEZIYASININ MÖVZU – JANR DAIRƏSI

**Annotasiya**. Məqalədə XX əsrin 80-ci illərindən imzası şair Şəkər Aslanın "Uğurlu yol"u ilə mətbuatda geniş oxucu kütləsinə təqdim edilmiş tanınmış istedadlı şair Elşad Səfərli poeziya- sının mövzu–janr dairəsi araşdırma müstəvisinə cəlb edilmiş, söylənilən mülahizə, fikir və əldə edilən nəticələr haqqında bəhs açılmış, digər ədəbi-bədii, elmi mənbələrlə müqayisədə əsaslandırılmışdır. Tədqiq–təhlil kontekstində bu yaradıcılığın poetik təkamülü diqqətlə izlənilmiş, ədəbi ənənə ilə müasirliyin bağlılıq amilləri bu prosesdə inkişafin əsas şərti kimi vurğulanmışdır.

Şərh və izah prosesi çoxcəhətli mövzu, janr və digər şeir şəkillərinin şairin yaradıcılığında mövqeyi məsələsində təkcə konkret nümunələrə istinadla məhdudlaşmır, eyni zamanda ədəbi tənqiddə, elmi münasibətdə həmin poetik qaynaqlar haqqında mövcud çoxsaylı rəylər tədqiqatçı üçün dolğun-dürüst sübutedici arqument funksiyasını yerinə yetirmiş olur.

Məqalədə istinadedici mənbələrin çoxluğu şairin yaradıcılığına ədəbi–tənqidi inamın yetərli olmasından xəbər verməklə yanaşı, həm də geniş müzakirələrə, faydalı polemikaya yol açır. Şairin bir çox mövzulara, şeir şəkillərinə, xüsusən də Avropa tipli janrlara özünəxas müraciət etməsi onun yenilikçi poetik ruhu ilə əlaqələndirilir. Məhz bu amillə E. Səfərli imzasının poeziyamız üçün heç də təsadüfi olmadığı, yaradıcılığının bir sıra laylar üzrə araşdırmaya layiq olduğu açıqlanmış və bu mövzu gələcəkdə daha geniş araşdırıla biləcək bir aktuallığa malik olması faktı kimi əsaslandırılmışdır.

**Açar sözlər:** Üçlük, tersina, xokku, sonet, sonetistika, janr, kontekst, novator.

Elşad Məhərrəm oğlu Səfərli 1957-ci ilin 10 martında Lənkəran rayonunun Gərmətük qəsəbəsində anadan olmuşdur. Orta məktəbin 6-8-ci siniflərində hələ oxuyarkən ədəbi mütaliə ilə ciddi məşğul olur, ara-sıra şeirlər yazırdı. Lakin ədəbiyyata, xüsusən də poeziyaya həvəsi yüksələn xətt üzrə inkişafda idi. Elə bu dövrlərdən başlayaraq, Elşad Səfərli imzası mətbuatda– bir sıra qəzetlərdə görünməkdə idi. Maraqlısı bu idi ki, həmin qəzetlərin ədəbiyyat səhifələrində ədəbi proseslə bağlı xülasə şəkilli yazı nümunələrində gənc şairin şeirlərinə müsbət yöndə tez-tez müraciətlər edilir və onun şeirləri digərlərdən fərqləndirilirdi. O vaxtlar Lənkəranda yaşayan istedadlı tanınmış şairlər: Şəkər Aslanla Vaqif Hüseynovun bu

tipli yazılarında gələcəyə ümid verən şair kimi Elşad Səfərli imzasına xüsusi münasibət hiss olunmaqda idi.

Ötən zamanlar göstərdi ki, gənc şairə bəslənilən bu inam heç də təsadüfi deyilmiş. Belə ki, tanınmış şair Şəkər Aslan E.Səfərlinin ilk şeirlərini yerli mətbuatda "Məhəbbət və inam" başlığı altında,"Uğurlu yol" təqdimatı ilə oxuculara təqdim edir (Bax: Ş.Aslan. Uğurlu yol. Məhəbbət və inam (E.Səfərlinin ilk şeirləri haqqında). "Leninçi" qəz, Lənkəran, 1981, 21 noyabr, №138 (5692), s.4). On ildən sonra isə, yəni 1991-ci ildə folklorşünas alim, həmçinin şair Qiyas Vəkilovun (Əcaib) "İnam" adıyla gənc şairin bir neçə şeiri də daxil olmaqla, "Azərbaycan müəllimi" qəzetində onun haqqında qeydləri "Uğurlu yol" rubrikasıyla dərc edilmişdir (Bax: Q.Vəkilov. Uğurlu yol. İnam. "Azərbaycan müəllimi" qəz., Bakı, 1991, 30 yanvar, №8 (7047), s.4). Göründüyü kimi, hər iki təqdimat xarakterli mətndə gənc şairin ilk şeirləri üçün ən vacib amil kimi onların şairin inam, ümid hissi ilə sıx bağlılığının səciyyələndirilməsidir.

Ümumiyyətlə, gənc şairin ilk şeirləri ilə bağlı söylənilən fikir və mülahizələrdə mövzu-tematika baxımından inam, ümid və məhəbbət fəlsəfəsinin dominantlıq təşkil etdiyini aydın müşahidə etmək mümkündür. Ayrı şeirlərdə iki bəndə müraciət edək:

İnam ürəyimdə işıq ucudu,
Ürək özü bilir nəyə qadirəm, –
Mən hansı işığın ucundan tutub,
Mən hansı məqsədə doğru gedirəm. [11,43-44]

Bu bənddə müəllif şərhində inam həm də işıq kimi xarakterizə edilir.

...Odu, hərarəti – soyumaz atəş,
Mehrini duydumu, daş da bar edər.
Necə inamlısa, gecələr günəş
Dünyanı əllərə etibar edə [11,19-20]

Bəndin ikinci beytində inam, Günəşin dünyanı gecələr əllərə etibar etməsi faktı kimi şərtləndirilir və bu şərt, misraların obraz, məna-məzmun çalarlarını daha da dolğunlaşdırır.

Şair Şəkər Aslan yazır: "E.Səfərli ilk şeirlərini redaksiyaya gətirmişdir. Bunları diqqətlə oxuyanda, onun əsl poeziya yoluna gəlib çıxdığına inanırsan. Bütün başqa yollarda olduğu kimi, burada da inamla, cəsarət və qətiyyətlə addımlamaq yolçudan böyük ürək tələb edir. Şair ürəyinin böyüklüyünü müəyyən edən meyar onun məhəbbətidir. Elşadın məndəki şeirlərində onun qəlbinin saf bir məhəbbətlə döyündüyü hiss olunur. Bu, doğma kəndə, təbiətə, ana torpağa, xeyirxah, saf, sadə və mərd adamlara məhəbbətdir... Şübhə yoxdur ki, gələcəkdə bu məhəbbət daha yüksək

poetik şəkildə ifadə olunacaqdır. Məndə bu inamı Elşadın indiki şeirlərində rast gəldiyim ayrı-ayrı obrazlı, sərrast deyilmiş fikirlər, səlis, axıcı misralar oyadır!" [1,4].

Folklorşünas alim, şair Q.Vəkilov yuxarıda söylənilən fikrin, mülahizənin elə bil ki, ardını gətirir və öz əlavələri ilə mövcud konteksti daha da dolğunlaşdırır. Ola bilsin ki, tam görünmə - yəni öz rakursundan, baxış bucağından daha da tamamlayır: "Elşad Səfərlini şeirə, sənətə bağlayan inam hissidir. Müəllifin fikrincə, inam sənət yolunda onun qolundan tutan işıqdır. Şair heç kəsdən heç zaman bir qayğı görməsə də inamını itirmir. Elşad Səfərlinin şeirlərində poetik məna tutumu, deyim tərzi təbii təsir bağışlayır. Burada xoşa gələn cəhətlərdən ən başlıcası haqqa, ədalətə inamın, insanlığın, doğma torpağın, anaya məhəbbətin tərənnümüdür, orijinallıqdır, fikirlərin, bədii detalların təzəliyidir, məcazların, rənglərin yerli-yerində işlədilməsidir" [20, s.4].

E.Səfərlinin ilk şeirlərinin inam-məhəbbət vəhdəti, özündə həm də qarşılıqlı anlaşma münasibətini, sədaqət-sadiqlik adını da birləşdirir. "Yalnız sevgi" şeirinin birinci bəndi qeyd etdiyimizin poetik təcəssümünə çevrilir:

Sən mənim ömrümdə tale yazmısan,
Taledən yazılan çətin pozula.
Ürəyim telefon dəftəri deyil,
Gündə kimlərinsə adı yazıla. [12,92]

Əlbəttə, bu günün sevgi şouları adamları çaş-baş salsa da, bu şeirin lirik qəhrəmanı isə səmimi və saf etirafı ilə o şouları üstələyir, onlara qalib gəlir.

Elşad Səfərlinin ilk şeirlərinin forma-janr xüsusiyyətləri, mövzu-tematika rəngarəngliyi haqqında söylənilən fikirlər, mülahizələr sırasında XX əsrin 70-80-ci illər nəsrinin qüdrətli simalarından biri olan Cəmil Əlibəyovun şairin "Səhərə tələsən qatar" şeirlər və poemalar kitabının təkrar nəşrinə yazdığı "Şairin dərd-qəm qatarı" adlı "Ön söz"ündə bu yaradıcılığın ilk dövrünə aid şeir və poemaların mövzu-janr istiqamətlərini müəyyənləşdirməklə yanaşı, onun fərqli, fərdi cəhətləri ilə bağlı düşüncələrimizdə daha dolğun, daha əhatəli təsəvvür genişliyinə də nail olmuş oluruq. Yazıçının təqdimatında oxuyuruq: "İstedadlı Azərbaycan şairi Elşad Səfərlinin... şeirlərini siyasi lirika, məhəbbət lirikası boyları ilə cərgələsək, Elşadın siyasi lirikası zabitlik zəhmində - zabitəsində, məhəbbət lirikası sıravi əsgər tabeliyində örnəklər yaradır: təbiətə həsr etdiyi misralar, ilk məhəbbət duyğuları, ata-ana məftunluğu –bunlar şair həyatının gülşən bucaqlarıdır, doğrudur, öz poetik vüsəti ilə heç də axırıncı sırada dayanmır. Elşad bunların hamısını adi insanın gördüyündən, duyduğundan, həzz aldığından artıq isti rənglərlə, dadlı kəlmələrlə, ətirli çalarlarla təqdim edir" [5, 7; 5, 3-10].

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2025
Səh. 411-427

Elşad Səfərli poeziyasında mövzu-janr dairəsinin əhatəliyi və genişliyi xüsusi diqqət çəkir. Çünki şair yaxşı başa düşür ki, eyni mövzulardan təkrar-təkrar şeirlər yazmaq həmin mövzunu yeknəsəqləşdirir, bir növ onu əhəmiyyətsizləşdirir, ona oxucu marağını öldürür. Şair üçün yaradıcılıqda bundan təhlükəli, bəlkə də, ikinci bir amil yoxdur, buna görə də müəllif haqlı olaraq bu amili diqqətdən qaçırtmır. Yeknəsəqliyin poetik mətnə gətirdiyi fəsad həm də sözçülükdür. Nə yaxşı ki, yaradıcılığını tədqiqat obyektinə çevirdimiz müəllifdə bu hallara təsadüf etmirik. Elə bunun nəticəsidir ki, E.Səfərli poeziyasına diqqətlə yanaşan və onun haqqında bir neçə məqalə yazan professor Əmirxan Xəlilov bu aspektdən yazır: "Elşad Səfərli bədii yaradıcılığında mövzu seçiminə xüsusi diqqət yetirir. Bu çox vacib məsələdir. Onun böyük həmkarlarından birinin dediyi kimi "Hər şeydən yazanda heç nə yazmıram... şair bu devizə həmişə sadiq qalmışdır, bu tezisə əsaslanmışdır: "o vaxt yazmağa başlayıram ki, artıq yazmaya bilmirəm" [7; 5-16]. Bunun ardınca isə tənqidçi Elşadın heç də az yazmadığını, yazanda isə yığcam, obrazlı və mənalı yazdığını, sözçülükdən qaçmağın mühümlüyünü yaradıcılığın vacib şərti sandığını əminliklə vurğulayır.

E. Səfərlinin təbiət, ümumən peyzaj lirikasina qısa bir ekskurs etməklə söhbətimizin, yeni kontekstin davamını gətirək. Hamı kimi, ilk yaradıcılıq dövründə E. Səfərli də peyzaj lirikasına az müraciət etməmişdir. Bildiyimiz kimi, bu tip nümunələrində təbiət, torpaq insanla vəhdətdə həmişə başlanğıc amil kimi təsvir-tərənnüm obyektinə çevrilmişdir. Çünki peyzaj lirikasında insan, təbiətin bir parçası kimi götürüldüyü üçün mənəvi-ruhi saflığın, paklığın, zənginliyin, bütövlüyün və müqayisəyə gələn tərəflərin vəhdəti, qaynağı, qarışığı kimi də tədqiq-təhlilə cəlb edilir. Lakin çox vaxt yazılan təbiətlə bağlı nümunələrdə biz bu bütövlüyü, bitkinliyi tam şəkildə yox, əksər hallarda çılpaq vəziyyətdə görürük. Təbii ki, belə peyzaj nümunə- lərində təbiətin insanla müqayisəli bədii-fəlsəfi dərki mümkünsüzdür. Çünki insan bir fərd, şəxsiyyət kimi özünün obrazlı ifadəsini yalnız təbiətlə vəhdətdə tapır: insan müqayisədə təbiət, torpaq komponentlərini itirəndə özünün obraz komponentlərini də itirmiş olur.

Bu mənada, E. Səfərlinin təbiət şeirlərində "təbiətə qayğı – insana qayğı" anlayışı kimi şərtlənir. Onun "Torpağın alqışı", " Yurd yeri", "Elə yerdə yaşayıram", "Nostalji", "Torpaq hər yerdə vətəndir" və s. şeirlərində təbiət, insani başlanğıcın, məzmunun daşıyıcısıdır, bir qaynağda iki komponentin təsdiqi, təqdimidir.

Çağdaş şeir təbiətə fəlsəfi mənada təkcə şüursuz materiya kimi yox, düşünən, sevinən, kədərlənən varlıq – insan kimi yanaşır. O, təkcə gözəllik, estetik zövq mənbəyi deyildir, o həm də böyük hərflə yazılası İnsanın özüdür, təcəssümüdür, təzahürüdür, inikasıdır. Buna görə də təbiətin bir sıra predmetlərinə aid cizgilər, xarakterik xüsusiyyətlər, rəmzi epitetlər – "Palıd– ucalıq, məğrurluq rəmzi, səma və dəniz – ağlın hüdudsuzluq və dərinlik ölçüləri, lalə və bənövşə– davamsız, qısa ömrün obrazları şəklində mənalandırılırdı" [9, 15].

Ədəbiyyatşünas alim Mürşüd Məmmədov yuxarıdakı sitatın davamı kimi yazırdı: "Müasir təbiət lirikasında təsvir obyekti ibrətamiz məzmunla aşılanır, söz və detal rəmzi səciyyə daşımaqla müəyyən bir fikrin daha sərrast bədii icrasına xidmət edilir" [9, 137]. Çağdaş (daha çox 70-80-ci illər poeziyası nəzərdə tutulur– K.Kazımov) təbiət, peyzaj lirikasının mahiyyətini, sənətkarlıq xüsusiyyətlərini özündə ehtiva edən bu mülahizəni doğru-dürüst hesab edir, bu poetik cəhətləri E.Səfərlinin peyzaj lirikasına da aid etməkdə düşünürük ki, heç də yanılmırıq. Aşağıda şairin "Torpağın alqışı" şeirindən gətirdiyimiz iki bənd, "Yurd yeri" şeirindən isə əlavə etdiyimiz bir bəndlə yuxarıdakı əminliyimizi sübutlamış oluruq:

... Tutulub günəşin "nur yağışına",
Bulaq oxşayırdı üzük qaşına.
Bulud zirvələrdə çöküb başına –
Meşə anam kimi "ağbirçək" idi.

Burda yaz şehinə batıb yoxuşlar,
Mamır köynəyini geyinib daşlar.
Dünyanı nəğməyə tutmuşdu quşlar,
Torpağın alqışı gül-çiçək idi. [11,10]

Günəşsiz də burda soyumaz canım,
Torpağın həniri bəsdi isinəm.
"Geydiyim köynək də mənə dar gəldi,"
Demə, iftixardan qalxıbmış sinəm. [11,44]

Və bu cür təbiət şeirlərinin istənilən qədər ardını gətirmək mümkündür.

Yeridir deyə, mərhum yazıçı C.Əlibəyovun yuxarıda verdiyimiz sitatının davamına müraciət edək: "E.Səfərlinin lirikasında mövzu-məzmun elə ifadə edilir ki, sənə keçən günləri elə xatırladır ki, onların nisgilini çəkib qəmlənirsən, qürurlanırsan ki, sən belə gözəl, xürrəm-şad, qayğısız... günlər yaşamısan: bulaqların çaldığı saza qulaq asmısan; qarı ovcunda sıxıb, qaynaqlara həyat verən bənövşəli guzeyləri seyr etmisən. Başına bəyaz buludlar çökən meşəni "ağbirçək ana" qiyafəsində görmüsən və ilahi məhəbbət pıçıltılarına qulaq vermisən" [5, 7; 3-10].

Bu məqamda E. Səfərli haqqında ədəbiyyatşünas-tənqidçi, yazıçı Allahverdi Eminovun yazdığı monoqrafiyasında bir qeydinə istinad etməyi məqsədəuyğun bildik. O yazır: "Elşadın poeziyası haqqında ədəbi prosesin nüfuzlu, tanınmış simaları tərəfindən yazılan belə yüksək fikirlərə biz araşdırma zamanı çox təsadüf etdik və düşünürük ki, bu fikirlərin hələ ardı gələ- cək. Yeri gəldikcə, biz həmin qənaət və mülahizələrə istinad edəcəyik" [3, 14]. Bu deyilənlərə biz də əlavə edək ki, həqiqətən də, E.Səfərli haqqında araşdırma işlərini apararkən onun yaradıcılığı ilə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 411-427*

bağlı ədəbi-elmi ictimaiyyətin sayı heç də az olmayan simalarının bu yaradıcılıq tipinin müxtəlif parametrləri: mövzu dairəsi, janr-vəzn xüsusiyyətləri, lirikasından heç də geri qalmayan poemalarına görə yazılan çoxsaylı məqalə, resenziya, bir neçə kitab, həmçinin söylənilən fikir, mülahizə və müddəalara təsadüf etdik. Bunların sırasında: S. Əsədullayev, V.Yusifli, Ə.Xəlilov, N.Məmmədli, Ş.Fazil, H.Həşimli, K.Kazımov, C.Əlibəyov, Ş.Aslan, A.Eminov, Y.Məmmədli, N.Məmmədova və s. alimlərin, ədəbi prosesin tanınmış mövqe sahiblərinin imzasını görəndə, heç də təqdir edilən yaradıcılığına görə bu halı təsadüfi saymadıq və bu yazı-pozu prosesini heç də hansısa əlaqələrlə, münasibətlərlə bağlamadıq. Çünki görkəmli tanınmış tənqidçi Vaqif Yusiflinin bir geniş məqaləsində yazdığı kimi: - “O, "şəhər uşağı" deyil, bizim bir çoxumuz kimi kənddən-kəsəkdən çıxıb" [22, 14]. Görkəmli tənqidçinin nəyə eyham etdiyini duymaq düşünürük ki, heç də çətin deyildir.

Yazılanların əksəriyyətində bəhs açdığımız şairin özünəxas yaradıcılıq manerasına malik, poeziyada yenilikçi olmasından danışılır. İndi qeyd etdiyimiz sitatda da V.Yusifli bu kontekstdən çıxış edir: "E.Səfərlinin həm "Bir yalquzaq təkliyi", həm də bu kitabında ("Ayrılıqlar vağzalı" kitabı nəzərdə tutulur– K.Kazımov) onun ölməz sənətkarlar, şeir və sənət haqqında düşüncələri diqqəti daha çox cəlb edir. Çünki bu səpkili şeirlərində obrazlı, özünəxas ifadə, tərz polifonizmi dominant mövqedən iştirak etmiş olur. Bu da təbiidir. Bizim əksər şairlərimiz kimi o da bu sənət vadisində öz cığırını müəyyənləşdirmək istəyir, bilmək istəyir ki, Nizami, Füzuli, Nəsimi, S. Vurğun, Ə.Kərim fəzalarında onun qisməti nədir? Bu – özünüdərkdir... O yaxşı bilir ki, "Bir misrası zəif əsərimə də, demişəm: Elşadın kəlamı deyil", ya da "Hamının sənətdə öz yeri... amma, Hamı bu sənətdə Nizami deyil, Füzuli deyil". Məncə, Elşadın "Zirvələr, təpələr" şeiri onun sənət haqqında fikirləri üçün bir izah ola bilər. Bu şeirdə zirvələr və təpələr sanki sənət aləmindəki aşırımları, keçidləri aydınlaşdırır. Deyir ki:

Dənizin sahilə
Qədərki yolu,
O taylı,
Bu taylı
Ləpədən keçir.
Təpəni zirvədən ayrı sanmayın,
Zirvənin yolu da
Təpədən keçir. [16, 7]

Vaqif Yusifliyə bir də müraciət etməyi vacib bilirik. Çünki bu tanınmış ədəbiyyatşünas-tənqidçinin hansısa yaradıcı insan üçün söylədiyi fikir, mülahizə səhih dəqiq və ən başlıcası mötəbər sayıldığına görə ədəbi diqqətdən kənarda qalması, demək olar ki, mümkünsüzdür. O vurğulayır: "Elşad Səfərlini yaxşı

tanıyıram. Müasir Azərbaycan poeziyasında öz yeri var. Onun "Lənkəran sonetləri" kitabını daha çox təqdir edirəm... Görkəmli ədəbiyyatşünas alim, əməkdar elm xadimi Hüseyn Həşimli o kitaba "Ön söz" yazıb: "E.Səfərlinin sonetləri, sonetlər çələngləri və bu janrla bağlı yenilikləri bir ədəbiyyat adamı kimi məni çox sevindirir. Poeziya-da yenilikçidir" [21, 6]. Və bu sitatda "poeziyada yenilikçidir" ifadəsinin böyük əminliklə söy- lənməsi şairin yaradıcılığ potensialına, kondisiyasına, özünəxas yenilikçi ruhuna inamın ifadəsi kimi səslənir və bu şairin poetik taleyindən gözləntilərə bir növ haqq qazandırmış olur. Üstəlik, mərhum görkəmli tənqidçi, professor Seyfulla Əsədullayevin şairin bir soneti ilə bağlı yazdığı: -"bu, sonet haqqında sonetin Azərbaycan poeziyasında ilk nümunəsidir ki, bu da müəllifin bu sahədə novatorluğuna dəlalət edir" [6, 51] - mülahizəsi bir daha sübut edir ki, E.Səfərli haqqında bu istiqamətdə söylənilən fikir və müddəalar heç də təsadüfi deyil, dəqiqdir və ciddi əsaslara dayaqlanır.

Adətən Elşadın yenilikçi ruhunu onun Avropa şeir janrlarında: üçlük, xokku, ballada, sonet və sonetlər çələngi yazması ilə bağlayırlar. Ancaq biz bu cür baxışları əsassız, məhdud və elmi-nəzəri yanaşmadan kənar, qeyri-ciddi söhbətlər kimi xarakterizə edirik. Düzdür, E.Səfərlinin yuxarıda sadalanan janrlarla bağlı: xüsusən də, xokku və sonet janrında uğurları yetərlidir. Sonetin Azərbaycan sonetistikasında digər on beşə yaxın növlərinin ilk dəfə işlənməsi, tətbiqi təcrübəsi də məhz bu şairə aiddir. Yapon xokkusunun Azərbaycanda kütləviləş- məsində də onun xidmətləri nəzərəçarpandır. Və bir sıra elmi, ədəbi-tənqidi mənbələr bu haqda heç də az yazmamışlar. Yeri gəldikcə biz bu kontekstin davamını gətirəcəyik. Bəzən kimlərinsə fikir, yaxud mülahizə söyləntilərində ehtiyatsızlıq etmələri ədəbi prosesdə təbii ki, çaşqınlığa da gətirib çıxarmış olur. Etiraf edək ki, bəzən bu cür məqamlarla ədəbi qısqanclıq ucbatından, məqsədli şəkildə yol vermə halları kimi də üzləşirik.

Elşad Səfərli poeziyasının janr dairəsi, əlbəttə, mövzu dairəsi qədər geniş və əhatəlidir. Bu sahədə çoxlu şeirlər və on altı poema müəllifidir. Bu nümunələrdə hər hansı janrın tələblərinə kanonikanın verdiyi imkanlar çərçivəsində riayət edilsə də, lakin o heç vaxt şeir mətnlərinə konservativ-mühafizəkar münasibət sərgiləməmişdir. İmkanınca istənilən janrın çərçivəsində özünəxaslığı tətbiq etməyə üstünlük vermiş, bəzən bir şeirin kanonik çərçivəsində digər şeir şəkillərinin ünsürlərinin tətbiqinə, bir növ kontaminasiyasına nail olmağı da bacarmışdır. O, bəzən tələb olunan yerdə, zərurət duyulanda şeir bəndlərində müxtəlif dəyişiklər etmiş, tərz, ifadə polifonizminə geniş yer vermişdir. Şairin heca və sərbəst, bəzənsə həmin iki vəznin ünsürlərinin çarpazlaşmış forması olan hibrid mətnlərdə yazılmış nümunələrdə onun yenilikçi ruhunu təkcə şeirin zahiri qatında yox, həm də sətiraltı əlavə məcazi qatda görmək mümkündür. Buna görə də E. Səfərlinin poeziyada yenilikçi olmasından bəhs edənlər bu yeniliyi, novatorluğu heç də yalnız onun Avropa şeir şəkilli nümunələri ilə bağlamamışlar. Gör- kəmli tənqidçi V. Yusiflinin: "... Poeziyada yenilikçidir"– kifayət qədər aydın, ciddi, ölçülüb-biçilmiş mülahizəsi E. Səfərlinin

ümumən bütövlükdə poeziyasına aid vurğulanmışdır. Burda spekulyativ, qısqanc düşüncəyə yer yoxdur...

"... Poeziyada yenilikçidir" müddəasına yuxarıda biz V.Yusiflinin şairin sabahkı ədəbi tale- yindən gözləntilərə həm də əminliyin ifadəsi kimi baxırıq və "Qalxmaq istəyirlər mən bəra- bəri" şeirində həmin müddəanın E.Səfərlinin poetik kredosu kimi qəbulu da mümkündür, çünki sabahlara ərməğan olan yaşarı poeziya, yalnız yenilikçi sənət prinsiplərinə adekvat olan poeziyadir. Biz bu adekvatlığı adı çəkilən aşağıdakı şeirdə əsl kredo nümunəsi kimi müşahidə edə bilirik:

Hələ ki, qalxıram... bir yer tutmuşam
Dağ ilə günəşin tin bərabəri.
Zirvə elə yerdə zirvələnib ki,
Duman bərabəri, çən bərabəri

Kimsə kölgəmi lap qənimət bilir–
Dərdin üz-gözündən kölgəmlə silir.
Darıxır– elə ki, kölgəm çəkilir
Günəş şaxıyanda "N" bərabəri.

Şöhrət kim deyir ki, tək zirvədə var?
Sözü zirvə olan hücrədə də var.
Şəhidlik deyilən bir zirvə də var
Qoyar kölgəsində min bərabəri.

Əgər ilhamımda varsa boy yerim,
Gərək zirvə boyu onda boy verim.
Sözün zirvəsidir son bərabərim-
Qalxa bilərəmmi son bərabəri?
... Dumanlı olsa da Təbriz dikləri,
Qıraram tıkanlı məftillikləri.
Sözdə ötmək üçün öndəkiləri,
Hələ keçməliyəm ön bərabəri.

Nəfəsim çatarmı o hündürlüyə?
Mən ki, yarışmıram beş-on günlüyə.
Sözüm qalxa bilsə o ənginliyə
Olacaq zirvənin tən bərabəri.

Zirvə elə təkcə ucalıq deyil...
Kimsə şeir yazır– heç onluq deyil.

Adam var şöhrəti misralıq deyil,
Amma ki, dartınır gün bərabəri.

Söz üstə kökləndim vuruş günümə,
Təsadüf etmədim heç boş günümə.
Ardımca gələn var... nə xoş günümə,
Qalxmaq istəyirlər mən bərabəri... [16, 79]

Ədəbiyyatşünas Mürşüd Məmmədov ənənə ilə müasirliyin sintezindən vurğulayırdı: "Ənənədən ayrılmış, onunla dialektik vəhdətdə olmayan müasirlik yoxdur... Ənənə - bədii ədəbiyyatda sonrakı inkişafın rəhnidir" [9, 33]. Elə şeir janrlari, şəkilləri vardır ki, onların daha da təkmilləşdirilməsi, yeni keyfiyyətlər əldə etməsi məntiqi olaraq onların üzərində gələcək poetik təcrübənin tətbiqi ilə baş verir. Ənənəyə müraciət heç də "köhnənin" aludəçiliklə dirçəldilməsi deyildir. Ənənə müasirliklə sintez olunanda poeziyada bu vəhdətin proq- ressiv inkişafını daha tez duymaq mümkündür. Buna görə də 60-cı və 70-80-ci illər poeziya- sında ənənə ilə müasirliyin sintezinə köklənmiş poetik nümunələrin dinamik inkişaf tempi çox yüksək idi. Və bu təmayülün daşıyıcıları olan şairlərin də məhz bu istiqamətin nümayəndəsi kimi tanınmaları nəzərçarpan idi. Onların yaradıcılığında yeni dövrün mənzərəsi ənənə ilə sıx bağlılığda daha kamil və daha mükəmməl görünürdü. 80-ci illər şairlərinin sırasında bu istiqamətdə Elşad Səfərlinin yaradıcılığı da diqqət çəkməkdə idi.

Bildiyimiz kimi, heca vəzninin üçlük– yəni yalnız üç misradan ibarət şeir şəklində XX əsrin əvvəllərindən Azərbaycan poeziyasında müxtəlif şairlər şeir yazmışlar. S.Rüstəm, S.Vurğun, M.Müşfiq, həmçinin 70-80-ci illər mərhələsində isə R.Rza, F.Sadıq, F.Qoca, V.Səmədoğlu və digərləri bu kiçik şeir "meydanında" uğurlu nümunələr yaratmışlar. Maraqlıdır ki, 80-ci illər ədəbi nəslinin nümayəndəsi E.Səfərli də çox-çox sonralar bu şeir şəklində qələmini sınamalı oldu. Və etiraf edək ki, heç də uğursuz, yəni faydasız alınmadı. Xüsusən də, onun 2025-ci ildə nəşri nəzərdə tutulan "Paralel dərd" şeirlər və poemalar kitab- ında yer alan 17 şeir üçlüklərdən ibarətdir. Adları yuxarıda sadalanan qüdrətli şairlərin yazdıqları şeir şəklində yeni söz deməyin, yeni üslubi cəhətlərin tətbiqi, yeniliklərin işlədilməsi, əlbəttə, hünər, cəsarət məsələsidir. Və əgər E.Səfərli ənənəvi bir şeir janrında nələrəsə nail olmağı bacarıbsa, bu təqdirəlayiqdir.

Elşad üçlüklərinin poetexniki konstruksiyasında üçlüklərin heca sayının müxtəlifliyi, ritm, ahəng harmoniyasının həmin müxtəliflikdə hecaların say uyğunluğuna uyğunlaşdırılması, ən əsası isə fikrin obrazlı təqdimi, məzmunun təsirli ifadəsi bu şeirlərin məziyyətini səciyyələndirir. Adətən Avropa tipli üçlüklərdə məzmun forma ünsürlərindən daha üstün tutulur, burda misraların müxtəlif rakurslardan qafiyələnməsi heç də əsas deyildir. Burada Avropa üçlüklərində, yəni

tersinalardaki kanonik qafiyələndirmə mühafizəkarlığına, konservatizminə əslində yer yoxdur. Böyük N.Hikmət, V.Bryusov, A.Axmatova və digərlərinin üçlüklərində tam fərqli konstruksiya müxtəlifliyinin şahidi oluruq. Və, əlbəttə, onların yaradıcılığındakı bu halı ənənəyə müasir, novator yanaşmanın təzahürü kimi xarakterizə etmək mümkündür.

E.Səfərli üçlüklərindən bir neçə nümunəyə müraciət edək:

Göyərçin–
Bir bəzəkdir
Göylərçin...
Sual yarandı: -
Əlimin duzu yoxkən
Sözümün duzu hardandı?

Adına aldanıb
Soydum naringini–
İçində ay parçaları...

Meşədən gəlir tük-tük... vurğusu–
Agacdələnlərin dimdiyində imiş
Ağacların ürək döyüntüsü...

...Tük-tük-tük səsi–
Yoxsa, meşə ağac-ağac daşınır?
-Yox, kimsə ağacların sağlamlığını düşünür...

Meşədə kimsə var... əminəm
Bu kimsə özgəsi deyil,
Çünki "tük" səsi balta səsi deyil... [17, 112-114]

Bu üçlüklərin sayını artırmaq da olardı... Diqqət etsək, əksəriyyətində bu şeirlərin qafiyə sistemi gözlənilir, amma müxtəlif mövqelərdə. Eləsi var ki, qafiyə 1–3-cü misralarda, eləsi də var ki, 2–3-cü misralarda baş tutur. Təqdim edilən üçlüklərin hamısı obrazlı düşüncə polifonizminin nümunəsidir, mənalıdır, məzmunludur, təsirlidir, adi görünüşdə qeyri-adi baxışın təzahürüdür. Rəngarənglik, poetik əlvanlıq bu şeirlərin ümumi kolorit effektinə çevrilir və, əlbəttə, bu tipli şeirlər ənənəvi forma nümunəsi sayılır. Lakin bu ənənəvi formada müasirlik tələblərinin tətbiqi tendensiyası gözlənilmişdir. Buna görə də bu şeirlər təzə, təravətli təsir bağışlayır.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 411-427*

Tanınmış tənqidçi Vaqif Yusifli E.Səfərli poeziyasının məhz müasirlik ruhuna istinadlanaraq yazır: "E.Səfərlinin şeir və poemalarında şair fərdiliyinin və özünüifadəsinin müxtəlif çalarları ilə üzləşmişəm. Təbii ki, bu şeirlər və poemalar arasında məni– bir oxucu və tənqidçi kimi bəzən o qədər də qane etməyən nümunələr də olub. Hansı ki, istənilən istedadlı bir şairin ümumi yaradıcılığı fonunda bu mümkün bir haldır. Amma həmişə qətiyyətlə bütövlükdə "Elşad Səfərli müasir şairdir", "İstedadlı şairdir " ifadələrini söyləmişəm" [22, 4].

Elşad Səfərli lirikasında üçlüklərin digər bir qolunu isə Yapon şeirinin zirvə janrlarından olan xokkular təşkil edir. Bu şeirlər artıq ayrı bir poetik aləmin gülşən bucaqlarıdır. Bu üç misraların əlavə məzmun qatında İlahi, nələr gizlənmir, nələr məcazlaşmır, obrazlaşmir?! Bu üç misraların demiurq nəfəsindən nələr əyan olmur, nələr "var" olmur?! Özü də bu barədə belə yazır:

Xokku– cəmi üç sətir,
Bu üç sətirdə
O nələr demir!..

Xokkuda şair yox, bəlkə də janrın özü bir aləm yaradır. Və xokkunun yaratdığı o möcüzəvi poetik aləm sözün hər üzünə hünər və bəlkə də bir ixtiradır, kəşfdir.

Buna görə də şair bu janra böyük ehtiramla yanaşır, onun tələblərinin ciddi gözlənməsini vacib bilir. Buna əməl etməyənləri heç də təqdir etmir:

Xokku–
On yeddi hecalı deyilsə,
Xokku yox, hoqqadır.

Bu janra dırnaqarası yanaşanlara isə kinayəli mövqe nümayiş etdirir:

Sən yazan "Haykü"dür? –
Mən yazan xokku,
Sən yazan hay-küydür!

Birinci misradaki "hayku" sözünə şairin münasibəti də aydınlaşır; bəziləri, xüsusən də, şair-tədqiqatçı Şahin Fazil "xokku" əvəzinə "hayku" ifadəsini işlədir. E.Səfərli isə Yapon şeir janrları– "vaka", "tanka" ya uyğun olaraq janrın "hayku" yox, "xokku" kimi işlədilməsini daha məqsədəmüvafiq hesab edir. Təsadüfi deyil ki, yazıçı, tənqidçi Elçin də janrın adını "xokku" kimi qeyd edir.

Ədəbiyyatşünas alim, yazıçı-publisist A.Eminov " E.Səfərlini poeziyamızda ilk dəfə "xokku" janrında yazan şairlərdən biri, bəlkə də birincisi hesab edir... Yazır ki, çünki ona qədər mən heç kimdə xokkuya təsadüf etməmişəm" [3, 17]. Və öz fikrinin

təsdiqi üçün digər iki müəllifin: Ə.Əliyev və M.Babayevin müştərək yazdıqları resenziyaya müraciət edilməsini məqsədəmüvafiq bilmişdir. Müştərək müəlliflər yazırlar: "Azərbaycan ədəbiyyatında "xokku" janrında əsər yaradan ilk şair, yanılmırıqsa, Elşad Səfərlidir" [4, 17].

E.Səfərlinin "Şair təkliyə məhkumdu" kitabında gedən ilk xokkusunun altında- 26.06.2003-cü il tarixi qeyd edilmişdir. Düzdür, bu məsələ müəyyən qədər mübahisəli məqamlar da doğura bilər. Amma yuxarıda adları sadalanan müəlliflərin fikirlərini təkzib edən digər qənaətlərə də rast gəlmirik. Hətta yaponşünas tədqiqatçı Rəşad Quluzadə şair-tədqiqatçı Şahin Fazilin "Azərbaycan haykuları" kitabına yazdığı "ön söz"ündə də bu haqda bir şey söyləmir, sadəcə, qeyd edir: "Biz artıq Azərbaycan şairlərinin Azərbaycan haykularını oxuya bilirik (məsələn, Böyükxan Pərviz və Elşad Səfərlinin haykuları)" [8,9]. Həmçinin, bunu da vurğulayır ki, hayku yazan Azərbaycan şairlərinin sırasına yenicə daxil olmuş Şahin Fazildir.

Lakin xeyli– yüzdən artıq xokku yazan və bunları ilk dəfə iki kitabında çap etdirən məhz Elşad Səfərlidir. Və heç bir şübhəyə iz qoymadan araşdırmalarımıza əsasən söyləyə bilərik ki, xokkunun Azərbaycan şeirində müəyyən qədər kütləviləşməsində də bu şairin xidmətləri az deyil. Özü də bir xokkusununda belə yazır:

Şahin Fazildən,
Elşad Səfərlidən
Budaqlandı xokku…

Amma unutmaq lazım deyil ki, Ş.Fazil bu prosesə çox-çox sonralar qoşulmuşdur. Tədqiqatçı R. Quluzadə də bunu "ön söz"ündə xüsusi qeyd etmişdir. Sadəcə, E.Səfərli təvazökarlıq naminə öz adını ikinci sətirdə verir, hansı ki, birinci sətirdə də yaza bilərdi...

Şairin xokku sənətkarlığı və xokku kanonikasındakı məharəti ilə bağlı dilçi alim, dosent Ə.Əliyevin və ədəbiyyatşünas M.Babayevin çap etdirdikləri məqaləyə yenidən müraciət etməyi zəruri sayırıq: "Xokku yapon ədəbiyyatının üç misralı lirik janrıdır, misraları qafiyələnmir (Elşadda isə misraların çoxu qafiyəlidir, bu, əlbəttə, onun Azərbaycan xokku tipinə novatorluq, yenilik gətirməsi deməkdir - A.E), lakin onlar məzmundan doğan daxili bir ritmə, musiqi- yə malikdir. Janr yaponların olsa da, fikir, hiss, duyğu, düşüncə, assosiativ duyum millidir, milli olduğu qədər də bəşəridir" [4, 17]. Bu mənada E.Səfərli xokkuları sənətkarlıq, poetika, yenilik, milli özünəməxsusluq baxımından sitatda əksini tapmış müddəalarla adekvat mahiyyətlidir. Bu şeirlərin poetik ekspressiyası təsirli və kanonik estetikası çox cəlbedicidir. Onun şeirlərində fikir quru nəzmlə, sillogizmlə ifadə edilmir. Çünki "quru nəzmdə sözü duymaq, onun incəliklərini hiss etmək, ifadənin hər çalarında bir aləm görmək və göstərmək istedadı təzahür edə bilməz" [10, 35].

Açılıbdır gül bükümü...
Yaşımdasa
Yarpaq tökümü...

Könlümdən
Balıq keçdi...
"Quyruğumu" suda şappıltdatdım...

Qədrin yoxsa,
Bu yaşanılası yox,
Öləsi bir dərddir!

Meşəni
Baltanın səsi qədər
Qorxudan başqa şey yox...
Buzlu su içmiş kimi
Pəncərədə
Bir səs titrəyirdi.

Ağ-qara sərf etmir?
Tənqidçidə
Şəklini rəngli çəkdir...

Ovcuma qondu kəpənək,
Bilirmiş
Qantökən deyiləm.

Pətəklə
Səhv salmışdılar
Kitabımı bal arıları...
Kasıbın yuxuları
Nikbin
Və novellavari bitir...

Tikan da gül açır...
Sərhəddə
Məftil tikanları necə?! [17, 117-132]

E.Səfərlinin istər üçlük, xokku, heca, sərbəst vəznli bir sıra şeirləri ilə yanaşı, sonetləri haqqında dominant– onların yenilikçi ruha sahib olmaları kimi səciyyəvi bir

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 411-427*

xüsusiyyət daha çox qabardılmışdır. Bu amil onun imzasının müəyyən qədər tanınmasının bəlkə də əsas şərti- dir. O, açığı, başını aşağı salıb yazıb-yaratmaq işi ilə məşğuldur, şöhrət işi onun üçün önəmli deyil, hansı ki, bugünkü ədəbi prosesdə elələrinə rast gəlmək mümkündür ki, ortada elə bir "sanballı" işi olmasa da daha çox "imzasını parıldatmaqla" məşğuldur. "Kimi..." adlı bir şeirində bu mənzərənin şahidi oluruq:

Kimi
imzasının parlaqlığından
"yoruldum" demədən
yazıb-yaratmaqdadır.
Kimi
bəxt güzgüsünü,
Kimi də bekarçılıqdan,
əldə nəm əsgi
gümüş pul kimi
imzasını parıldatmaqdadır... [17, 26]

Mərhum professor Ə.Xəlilov yazır: "Bir şeyə təəssüflənirsən ki, əsil yaradıcıların ətrafında xeyli bədxahlar olub və indi də var. Elşadın da belə bədxahları olub və yəqin ki, yenə də olacaq" [7, 13]. Amma onu da qeyd edək ki, bu bədxahlara təkcə özünə "şair" deyənlərin yox, "tənqidçi" deyənlərin sırasında da təəssüf ki, təsadüf etməkdəyik. Şair, tarixçi alim Şahin Fazil bu xoşagəlməz halla bağlı ürək ağrısı ilə vurğulayır: "Əgər S.Vurğun, S.Rüstəm, R.Rza kimi ordenli şairlər hayku yazsaydılar, tənqidçilər onların hayku yaradıcılıqlarını gen-bol tərifləyər, barələrində məqalə və monoqrafiyalar yazardılar. Bu gün hansı tənqidçi Böyükxan Pərvizdən, Elşad Səfərlidən hayku yazan şairlər kimi söz deyib? "Onlar nə yazacaqlar ki?"– deyə düşünən tənqidçi, şeirlərini heç oxumadan bu şairlərə və şəxsən mənə əhəmiyyət vermir" [18,100]. Çox ədalətli iraddır.

E.Səfərlinin sonetləri, sonetlər çələngləri onun poetik istedadı haqqında daha ətraflı, geniş bəhs açmağa imkanlar yaradır. Onun poemaları da bu qəbildəndir. Təəsüf ki, kiçik bir məqalə çərçivəsində biz bu şairin poeziyasının digər istiqamətləri, xüsusən də sevgi şeirləri haqqında geniş danışmağa imkanlı deyilik.

Ədəbi tənqidin "bu istedadlı şairin yaradıcılığına düşünürük ki, poetik imkanlarına görə önəm verəcəyi, haçansa daha ətraflı yer ayıracağı şəxsən bizdə şübhə yaratmır" [6, 15-16]. Bu gün düşünürük ki, müəyyən qədər buzlar artıq əriməkdədir (ottepelı), ədəbi tənqiddə də mülayimləşmə prosesinin baş verəcəyinə əminliyik. Bəlkə elə bunun nəticəsidir ki, artıq E.Səfərli adlı bir istedadlı şairin yaradıcılığı haqqında düşünürük ki, hələlik magistr dissertasiyası çərçivəsində araşdırmalar aparılması imkanı yaranmışdır... Ardını gətirmək sonra heç də çətin olmayacaq...

Qəribədir ki, istedadlı adamlar haqqında ədəbi tənqidin mötəbər imzalı simalarının yazdıqları obyektiv, güzəştiz məqalə, resenziya, mülahizə və qeydlərinə bədxahlar içərisində elələri var ki, şübhə toxumu səpməkdən də əl çəkinmirlər. Bu bədxah niyyətləri E.Səfərliyə qarşı sanki duymuş kimi beləl情inə tutarlı cavab üçün mərhum ədəbiyyatşünas-tənqidçi Əmirxan Xəlilovun bir mülahizəsini sitat gətirir və onun bu sitatı ilə də məqaləmizi yekunlaşdırırıq: "Elşad həqiqi sənət yolunda sözün Olimpinə doğru üz tutanların sırasında olsa da, lakin o, heç də sıradan bir şair deyildir. Həqiqətən də, onun poeziyası buna ayrıca ehtiyac duyulan ətraflı tədqiq və təhlilin predmetidir. Buna tam əminik və belə söyləyərkən bir ədəbiyyatşünas-tənqidçi kimi ən azından indiyə qədər yazdıqlarımızın altındakı imzamıza hörmətliyik" [7, 16].

**Ədəbiyyat**


1. Aslan Ş. Uğurlu yol. Məhəbbət və inam (Elşad Səfərlinin ilk şeirləri haqqında). “Leninçi” qəz., Lənkəran, 1981, 21 noyabr, №138(5692), s.4
2. Biblioqrafiya: Elşad Səfərli. Tərtib edən: Prof.N.Məmmədli. "Elm və təhsil" nəşriyyatı, Bakı, 2021, 106 s.
3. Eminov A.Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr. Bakı, “Elm və təhsil”, 2015, 214 s.
4. Əliyev Ə. Babayev M. Zamanla müxalifətdə olan şair. “Sənət qəzeti” qəz., Bakı, 2004, 23. 10-05 noyabr, №15(015), s. 17
5. Əlibəyov C. Şeirin dərd-qəm qatarı. “Səhərə tələsən qatar” kitabı haqqında resenziya. "Yeni Era” qəz., Bakı,1999, 12-13 oktyabr, № 32 (032). s.7
6. Əsədullayev S. Azərbaycan poeziyasında sonet janrı. Monoqrafiya. “Mütərcim”, Bak;, 2002, 68s.
7. Xəlilov Ə. Nikbin notlar, ya da qəm motivləri. “İki çiçəyin dastanı” kitabına “ön söz”. “Gənclik” nəşriyyatı, Bakı: 2020, s.5-16
8. Quluzadə R. Şahin Fazil və Azərbaycan haykuları. Ön söz. “Təknur” MMS, Bakı, 2007, s.3-22
9. Məmmədov M. Poeziya yeni təfəkkür işığında. Yazıçı, Bakı, 1990, 176s.
10. Nəbiyev B. Təzə izlər sorağında. Məqalələr. Yazıçı, Bakı, 1979, 216s.
11. Səfərli E. Dünya ömür yoludur. Bakı, "Gənclik" nəşriyyatı, Bakı, 1991, 96s.
12. Səfərli E. Yalnız sevgi. “Şans” nəşriyyatı, Bakı, 1999, 128s.
13. Səfərli E. Bir anın yuxusu. Poema. Bakı, "Gənclik" nəşriyyatı, 2022, 42s.
14. Səfərli E. Bir yalquzaq təkliyi. Şeirlər və poemalar. Bakı, "Gənclik" nəşriyyatı, 2022, 346 s.
15. Səfərli E. İki çiçəyin dastanı. Şeirlər və poemalar. Bakı, "Gənclik" nəşriyyatı, 2020, 358 s.
16. Səfərli E. Ayrılıqlar vağzalı. Şeirlər və poemalar, Bakı, Gənclik nəşriyyatı, 2023, 248 s.

17. Səfərli E. Paralel dərd. Şeirlər və poemalar. Bakı, "Qanun" nəşriyyatı, 2025, 334s.
18. Şahin F. Yaponiya səfərnaməsi "Elm və təhsil", 2011, 232s.
19. Şahin F. Azərbaycan haykuları. Bakı, "Təknur" MMC. Bakı, 2007, 384s.
20. Vəkilov Q. (Əcaib). Inam. Uğurlu yol. "Azərbaycan müəllimi" qəz., Bakı, 1991, 30 yanvar, №8(7047), s.4
21. Yusifli V. E.Səfərlinin " Bir anın yuxusu" kitabına " Ön söz". "Gənclik", Bakı, 2022, s.5-10
22. Yusifli V. Şair taleyi: Bu Elşad Səfərlidir."Bir yalquzaq təkliy" kitabına "ön söz". "Gənclik", Bakı, 2022, s.3-20
23. Yusifli V. Paralel dərdin kitabı. "Paralel dərd" kitabına "ön söz". Qanun nəşriyyatı, Bakı, 2025, s.5-20

**Kamran Shahveran oglu Kazimov**

## THEMATIC AND GENRE SPHERE OF ELSHAD SAFARLI'S POETRY ANNOTATION

In the article, the subject-genre scope of the well-known talented poet Elshad Safarli's poetry, which was presented to a wide readership in the press with the signature of poet Shekar Aslan in the 80s of the 20th century, "Ugurlu yol" the opinions, ideas and results obtained and compared to other discussed literary- artistic and scientific sources. In the context of research and analysis, the poetic evolution of this creativity was carefully followed, and the factors of connection between literary tradition and modernity were emphasized as the main condition of development in this process. The process of interpretation and explanation is not limited to referring to specific examples in the matter of the position of multifaceted themes, genres and other poetry types from the poet's work, at the same time, in literary criticism, in scientific relation, the numerous opinions about those poetic facts fulfill the function of a full-honest evidential argument for the researcher. The abundance of reference sources in the article not only indicates the sufficient literary-critical faith in the poet's work, but also opens the way for wide discussions and useful polemics. The poet's unique appeal to many themes and poetry types, especially European genres, is connected with his innovative poetic spirit. It is with this factor that E. Safarli's signature is not accidental for our poetry, it is stated that his work deserves to be studied on a number of levels, and it is justified as the fact that this topic has a relevance that can be studied more widely in the future.

**Key words:** Triplet, terzina, hokku, sonnet, sonnetistics, genre, context, innovator.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 411-427*

**Кямран Шахверен оглы Кязимов**

## ТЕМАТИКО-ЖАНРОВАЯ СФЕРА ПОЭЗИИ ЭЛЬШАДА САФАРЛИ

**АННОТАЦИЯ**

В статье рассматривается тематико-жанровый объем поэзии известного талантливого поэта Эльшада Сафарли, которая была представлена широкой аудитории в прессе произведением поэта Шекара Аслана «Угурлу йол» 80-х годов XX века. Обсуждаются рассуждения, идеи и полученные результаты – на основе сравнения с художественными и научными источниками. В контексте исследования и анализа тщательно прослежена поэтическая эволюция этого творчества, подчеркнут фактор, как основное условие развития связи современности с литературной традицией, как собственный поэтический потенциал поэта. Процесс интерпретации и объяснения в творчества поэта не ограничивается обращением к конкретным примерам в вопросе положения многоплановых тем, жанров и других поэтических образов, в то же время в литературной критике, в научном отношении, высказанные многочисленные мнения об этих поэтических фактах, выполняют для исследователя функцию полного, честного доказательного аргумента. Обилие справочных источников в статье не только свидетельствуют о достаточной литературно-критической доверчивости к творчеству поэта, но и открывает путь к широким дискуссиям и полезной полемике. Своеобразное обращение поэта к многим темам, поэтическим образам, особенно к жанрам европейского типа, связано с его новаторским духом. Именно этим фактором был обоснован тот факт актуальности темы, что поэтическая подпись Э.Сафарли является для нашей поэзии не случайным, выявлено, что его творчество заслуживает многоуровневого изучения и творчество этого талантливого поэта и в будущем будет всесторонне исследовано.

**Ключевые слова:** Троица, триплет, хокку, сонет, сонетистика, жанр, контекст, новатор.

**Rəyçi: Filologiya elmləri doktoru, professor**
**Zemfira Əlişah qızı Vəliyeva tərəfindən çapa**
**tövsiyə olunmuşdur (Bakı Slavyan Universiteti)**